# KİNO DİLİNİN FUNDAMENTAL TƏDQİQİ




Filologiya elmləri doktoru Fizuli Mustafayevin "Azərbaycan kinosunun üslubu" ("Elm və təhsil", 2023), "Azərbaycan kinosunun dili" ("Elm və təhsil", 2023) və "Azərbaycan onomastikası kino dilində" ("Optimist" MMC, 2025) monoqrafiyaları Azərbaycan dilçiliyinə və mədəniyyətinə, incəsənətinə - kinoşünaslığına həsr edilmiş dəyərli elmi araşdırmaların nəticəsidir. Hər üç kitaba professor,AMEA Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin müdiri İsmayıl Məmmədov geniş həcmli analitik səviyyəli ön söz yazmış, kitabların elmimiz, incəsənətimiz üçün çox mühüm əhəmiyyətini vurğulamışdır. "Azərbaycan kinosunun üslubu"na yazdığı ön sözdə prof. İ.O.-Məmmədli monoqrafiyanın tədqiqi istiqamətindəki uğurlardan bəhs edib. Göstərir ki, "Müasir dünyanın simasını qloballaşma və informasiyalı cəmiyyətə keçid prosesinin xarakteri müəyyənləşdirir. Bu prosesdə şifahi kütləvi kommunikasiya vasitələrinin, o cümlədən radio, televiziya fenomeni və onun rolunun artması spesifik diol sisteminin hərtərəfli öyrənilməsini aktuallaşdırır. Kino dilinin tədqiqi isə müasir Azarbaycan dilçiliyi qarşısında dayanan ən vacib problemlərdən birinin - getdikcə daha geniş sferaya çıxan, tətbiq dairəsi çoxalan, ekranın əsas ifadə vasitələrindan olan şifahi nitqin daha dərindan öyrənilməsi ilə sıx bağlıdır.

*(Davamı var)*

***Ş. ALBALIYEV***